

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 220 (21.630)

22 noyabr 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 21-də TOTAL şirkətinin baş icraçı direktoru Patrik Puyanneni qəbul edib.

Azərbaycan Prezidenti İlham Əliyev Patrik Puyanne ilə Davosda keçirdikləri görüşü məmnunluqla xatırlayaraq TOTAL şirkəti ilə əməkdaşlığımızın yaxşı tarixə malik olduğunu vurğulayıb. "Abşeron" qaz yatağının işlənilməsi ilə bağlı layihənin yaxşı perspektivlərinin mövcudluğunu bildirən dövlətimizin başçısı bu yatağın böyük potensiala malik olduğunu deyib, layihənin mərhələli şəkildə işlənilməsinin önəmini qeyd edib.

TOTAL şirkətinin artıq 20 ildir ki, Azərbaycanda fəaliyyət göstərdiyini vurğulayan Patrik Puyanne bu dövrdə uğurlu əməkdaşlığın qurulduğunu bildirib. "Abşeron" yatağının Azərbaycanda qaza olan tələbatın ödənilməsi üçün mühüm əhəmiyyət daşıyacağını deyən Patrik Puyanne bu yatağın işlənilməsinə dair Dövlət Neft Şirkəti ilə qarşılıqlı səmərəli razılığa gəlindiyini qeyd edib. Bu gün SOCAR ilə TOTAL arasında "Abşeron" qaz yatağı üzrə memorandumun imzalanacağını bildirən şirkətin baş icraçı direktoru səfərin bu layihənin işlənilməsi ilə bağlı ətraflı müzakirələrin aparılması üçün yaxşı fürsət yaratdığını vurğulayıb.

Qonaq, eyni zamanda, TOTAL şirkətinin Azərbaycandakı fəaliyyətinin 20 illiyinə həsr olunmuş tədbirlərdə iştirak edəcəyini məmnunluqla qeyd edib.

Görüşdə əməkdaşlığımızın perspektivləri ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılmasının 24-cü ildönümünə həsr olunmuş elmi-praktiki konfrans keçirilmişdir





***Noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaradılmasının 24-cü ildönümünə həsr olunmuş elmi-praktiki konfrans keçirilmişdir.***

Tədbirdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Sədrinin müavini Azər Zeynalov çıxış edərək demişdir: Bu gün Yeni Azərbaycan Partiyasının yaradılmasının 24-cü ildönümü tamam olur. Bu tarixi gündə partiyamızın və müstəqil Azərbaycan dövlətinin qurucusu, ümummilli lider Heydər Əliyevin əziz xatirəsini dərin ehtiramla yad edir, ruhu şad olsun deyirik. Ümummilli liderimiz müstəqilliyimizi qorumaq və daha da möhkəmləndirmək, ölkənin parçalanmasının qarşısını almaq və düşdüyü ağır sosial-iqtisadi böhrandan xilas etmək üçün möhkəm təmələ söykənən ideologiya əsasında Yeni Azərbaycan Partiyasını yaratmış və siyasi fəaliyyət müstəvisinə çıxarmışdır.

Qeyd olunmuşdur ki, Yeni Azərbaycan Partiyası 24 il bundan əvvəl, ölkəmizin siyasi həyatında gərgin proseslərin getdiyi bir dövrdə yarandı. 1990-1993-cü illərin Azərbaycanı ağır günlərini yaşayırdı. Belə bir şəraitdə qüdrətli liderə və liderin ətrafında birləşmiş güclü siyasi təşkilata ehtiyac bütün kəskinliyi ilə ortaya çıxdı. Xalq Azərbaycanın xilasını Heydər Əliyevdə görür, ümidlərini ona bağlayırdı. Beləliklə, 1992-ci il oktyabrın 16-da Naxçıvanı öz qurucu fəaliyyəti ilə Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəsinin güc mərkəzinə çevirən ümummilli liderimizə xalqın mütləq əksəriyyətinin siyasi iradəsini özündə əks etdirən ***"Azərbaycan Sizin sözünüzü gözləyir"*** müraciəti ünvanlandı. Ümummilli lider müraciətə 8 gündən sonra tarixi cavabını verdi. Beləliklə, 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində Yeni Azərbaycan Partiyasının təsis konfransı keçirildi. Ölkəmizin müxtəlif bölgələrindən gəlmiş 550-dən artıq nümayəndənin iştirak etdiyi təsis konfransı blokada vəziyyətinə görə lazımi səviyyədə isidilməyən və işıqlandırılmayan Naxçıvan Dövlət Dram Teatrının zalında keçirildi.

"Xalqımızın və dövlətimizin taleyinin həll olunduğu bir dövrdə meydana çıxan Yeni Azərbaycan Partiyası milli dövlətçiliyimizin inkişafı üçün son dərəcə əhəmiyyətli olan yeni tarixi mərhələnin əsasını qoydu. Güclü sosial bazası, gerçəkliyə əsaslanan proqramı, ulu öndər Heydər Əliyev kimi lideri olan Yeni Azərbaycan Partiyasının siyasi səhnəyə çıxması iyirminci əsr Azərbaycan tarixinin mühüm hadisəsi idi", – deyən Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı Sədrinin müavini vurğulamışdır ki, Heydər Əliyev şəxsiyyəti olmasaydı, Yeni Azərbaycan Partiyasının yaranması, təşkilatlanması və hakim partiya statusu qazanması da mümkün olmayacaqdı. Yeni Azərbaycan Partiyasının təsis edilməsindən sonra dahi liderin ali hakimiyyətə ikinci qayıdışı ölkənin düşdüyü ağır problemlərdən xilasının başlanğıcı oldu. Hakim partiya kimi Yeni Azərbaycan Partiyası qısa zamanda sabitliyi bərqərar edən, demokratik dəyərlərə üstünlük verən, hüquqi, demokratik, dünyəvi Azərbaycan dövləti və vətəndaş cəmiyyəti quruculuğu prosesini həyata keçirən real siyasi qüvvə kimi özünü təsdiq etdirdi. Bu yolla gedərək müxalifət partiyasından qüdrətli hakim partiyaya, siyasi partiyadan güclü ümumxalq partiyasına çevrildi.

Diqqətə çatdırılmışdır ki, bu gün Azərbaycanda gerçəkləşdirilən böyük iqtisadi layihələr, beynəlxalq aləmdə qazanılan uğurlar, dünya azərbaycanlılarının birliyinin daha da möhkəmləndirilməsi, həyata keçirilən uğurlu milli dirçəliş və dövlətçilik siyasəti eyni zamanda Yeni Azərbaycan Partiyasının real gücünün ifadəsidir. Bu nailiyyətlər partiyanın Naxçıvan Muxtar Respublika Təşkilatının fəaliyyətində də özünü göstərməkdədir. Ötən dövr ərzində ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi prinsiplərə sadiq qalan Yeni Azərbaycan Partiyasının Naxçıvan Muxtar Respublika Təşkilatı yüksək inkişaf və təşkilatlanma yolu keçmiş, partiyamızın sıraları cəmiyyətin bütün təbəqələrindən olan üzvlər hesabına genişlənmişdir.

Qeyd edilmişdir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin diqqət və qayğısı sayəsində partiyanın şəhər və rayon, eləcə də muxtar respublika təşkilatı müasir tələblərə cavab verən inzibati binalarla təmin olunmuşdur. Yeni yaradılan kənd mərkəzlərində partiya ərazi ilk təşkilatlarına da ayrıca iş otaqları ayrılmışdır. Bir sözlə, partiyamızın muxtar respublika təşkilatı ideya-təbliğat və təşkilati fəaliyyəti həyata keçirmək üçün bütün imkanlara malikdir. Bu imkanlardan muxtar respublikada səmərəli istifadənin nəticəsidir ki, bütün sahələrdə əsaslı nailiyyətlər əldə olunmuşdur. Əldə olunan nailiyyətlər bu siyasətin düzgünlüyünü, Heydər Əliyev quruculuq xəttinə sadiqliyi nümayiş etdirir.

Sonra Yeni Azərbaycan Partiyasının yaradılmasının 24-cü ildönümünə həsr olunmuş elmi-praktik konfrans açıq elan edilmişdir.

Konfransda Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının icra katibi Anar İbrahimov "Yeni Azərbaycan Partiyasının yaranması və fəaliyyəti", Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Kamal Cəfərov "Müstəqillik illərində Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı", Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının Heydər Əliyev adına Gənclər Birliyinin sədri Azad Cabbarov "Naxçıvan Muxtar Respublikasında gənclər siyasəti", Azərbaycan Vətən Müharibəsi Veteranları və Şəhid Ailələrinin Naxçıvan Muxtar Respublika Təşkilatının sədri Məcid Seyidov "Veteranlara dövlət qayğısı ölkə siyasətinin mühüm tərkib hissəsidir", Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri Yeganə Məmmədova "Cəmiyyətimizdə qadınların rolu və Yeni Azərbaycan Partiyası", Yeni Azərbaycan Partiyası Kəngərli Rayon Təşkilatının sədri Sevda Quliyeva "Yeni Azərbaycan Partiyasının inkişafında rayon təşkilatlarının rolu", Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin şöbə müdiri, gənc alim Elxan Məmmədov "Naxçıvan Muxtar Respublikasında elmin inkişafı" və "Gəmiqaya Bərəkət Qida Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru Yunis Yaqubov "Naxçıvan Muxtar Respublikasında sahibkarlığın inkişafına dövlət qayğısı" mövzularında çıxışlar etmişlər.

Çıxışlarda qeyd olunmuşdur ki, bu gün Azərbaycan iqtidarının, Yeni Azərbaycan Partiyasının qüdrəti, yenilməz gücü ümummilli lider Heydər Əliyevin müstəqillik və dövlətçilik ideologiyasından qaynaqlanır. Naxçıvan Muxtar Respublikasında 21 ildir, həyata keçirilən böyük quruculuq siyasəti, yaradılan ictimai-siyasi sabitlik xalqa olan bağlılığın, dövlətə və Heydər Əliyev ideyalarına olan sədaqətin bariz nümunəsidir. Blokadada olmasına baxmayaraq, muxtar respublikada tikilən binalar, bütün sahələri kompleks şəkildə əhatə edən digər sosial infrastruktur obyektləri, Naxçıvan şəhərində və eləcə də muxtar respublikanın bütün yaşayış məntəqələrində aparılan geniş tikinti-quruculuq və abadlıq işləri hər bir sakində böyük iftixar hissi yaradır. Bu siyasətin mühüm nəticəsi olaraq Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatının sıralarında cəmləşən partiya üzvləri, siyasi cəhətdən fəal gənclər və qadınlar muxtar respublikanın sosial-iqtisadi və ictimai-siyasi həyatında əsas hərəkətverici qüvvəyə çevrilmişdir. Partiyanın yarandığı ilk günlərdə Yeni Azərbaycan Partiyası Naxçıvan Muxtar Respublika Təşkilatı 1118 nəfəri, 2002-ci ildə isə 20 min nəfəri öz sıralarında birləşdirirdisə, partiyanın yaradılmasının 24-cü ildönümü ərəfəsində üzvlərin sayı artırılaraq 53 mindən çox olmuşdur.

Sonda Gənc Heydərçilər ümummilli liderimiz Heydər Əliyevə, ölkə Prezidenti cənab İlham Əliyevə və Vətənimizə həsr olunmuş şeirləri bədii qiraət etmişlər.

**"Şərq qapısı"**

*Son illərdə yaranmış yeni iqtisadi şəraitdə ölkəmizin ixrac potensialının daha da artırılması və onun qeyri-neft məhsullarının çeşidləndirilməsi istiqamətində qəbul olunmuş mühüm qərarlar "Made in Azerbaijan" brendinin formalaşdırılması və onun dünyaya tanıdılması zərurətini bir daha ortaya qoyub.*

# "Made in Azerbaijan" brendinə Naxçıvan töhfəsi



Azərbaycanın öz milli brendinin yaradılması müstəqilliyimizin bəhrəsidir. Şübhəsiz, ötən əsrdə keçmiş ittifaq daxilindəki Azərbaycanın bir çox məhsulları brend şəklində, ancaq başqasının adı ilə xaricə ixrac olunub. Neftlə yanaşı, Azərbaycanda istehsal olunmuş çay, şərab, tütün, mineral sular, kondisionerlər və digər məhsullar təkcə ittifaqda deyil, xaricdə də tanınıb. Ancaq müstəqilliyimizin əldə olunması və iqtisadiyyatımızın güclənməsi ilə bu imkanlar daha da artıb və ixracatdakı brendləşmə günün zərurətinə çevrilib.

Brend və brendləşmə nədir? Şübhəsiz, bu mühüm iqtisadi anlayış oxucularımız üçün maraqlıdır. Brend hər hansı məhsul və ya xidmətin öz keyfiyyəti və faydalılığı ilə analoqlarından əhəmiyyətli dərəcədə fərqlənərək istehlakçı seçimində rəqibsiz hala gəlməsi, yəni öz adı ilə tanınmasıdır. Brendləşmə isə belə bir arzuedilən səviyyəyə çatmaq üçün aparılan uzunmüddətli və məqsədyönlü fəaliyyətdir. Göründüyü kimi, brend səviyyəsinə çatmaq heç də göydən düşən bir hədiyyə deyil, eyni zamanda istehsal imkanlarının və dünya bazarının tələbatlarının düzgün qiymətləndirilməsi ilə əldə olunan bir səviyyədir. Bu, kifayət qədər xərc və zəhmət tələb edən bir iş olsa da, bəhrəsi çoxdur. Belə ki, bu gün özünün yüksəkkeyfiyyətli məhsulları ilə dünya bazarında tamamən brendləşmiş yapon mallarına ödənilən məbləğin hardasa yarısı məhz onların marka dəyərinə görə ödənilir və bu da həmin ölkənin iqtisadiyyatına qatılan ikiqat güc deməkdir. Deməli, "Made in Azerbaijan", yəni "Azərbaycanda istehsal olunmuşdur" brendinin formalaşdırılması, ölkəmizin iqtisadiyyatının daha da gücləndirilməsi üçün hər birimizin töhfəsi olmalı, bu barədə hər bir yerdə düşünməli, danışmalı, tanıtmalıyıq.

Müasir dünyada brend məhsullar geniş yayılıb. Bunlara hər yaşdan olan insanın yaxşı tanıdığı oyuncaqlardan avtomobillərə, ərzaq məhsullarından geyimlərə, universitetlərdən turizm mərkəzlərinə, pərakəndəçilərdən banklara, səhiyyə xidmətlərindən dərmanlara, mobil telefonlardan ətriyyat mallarına, mebellərdən müdafiə sənayesi məhsullarınadək mümkün ola bilən bütün sahələrdə rast gəlinir. Evdə, işdə, səyahətdə və digər sahələrdə istifadə olunan belə məhsul və xidmətlər özünün faydalılığı, estetikası və keyfiyyəti ilə seçilir, onlara dəyər verilir. Brend məhsullar həm də ölkəni tanıdır. Başqa sözlə, hamının dəyərini yüksək qiymətləndirdiyi hər hansı brendə məxsus mal və xidmətlər onun sahibi olan ölkədəki işgüzarlıqdan, burada beyin məhsuluna verilən dəyərdən, standartlara ciddi nəzarətdən, istehlakçı hüquqlarına hörmətdən, xidmətlər zamanı yüksək mədəniyyətdən xəbər verir. Bu baxımdan bir ölkəni təmsil edən brend məhsulu və onu istehsal edən firmanı həm də xoşməramlı missioner kimi qiymətləndirmək mümkündür. Məhz buna görə də ölkəmizi xarici bazarlarda təmsil edəcək hər bir məhsulu milli qürurumuz kimi görməli, bu istiqamətdə görülən hər bir işə layiqli töhfə verməliyik.

Naxçıvan Muxtar Respublikası da özünün unikal təbii-mineral sərvətləri, turizm ehtiyatları və emal sənayesi məhsulları ilə yaxşı tanınır. Bundan əlavə, son illərdə muxtar respublikada özəl bölmənin inkişafına dövlət dəstəyinin daha da gücləndirilməsi yerli məhsulların istehsalını artırıb, ixrac imkanlarını genişləndirib. Qeyd edək ki, hazırda muxtar respublikada 344 növdə məhsula olan tələbat tamamilə yerli istehsal hesabına ödənilir. Bununla yanaşı, Naxçıvandakı bir çox müəssisə artıq xarici bazarlarda özünəməxsus yer tutmağa başlamışdır. Belə ki, bu gün muxtar respublikada fəaliyyət istiqamətinə görə 51 müəssisə ixrac qabiliyyətinə malikdir. Həmin müəssisələr tərəfindən 60 növdə məhsulun istehsalı həyata keçirilir. Bu gün muxtar respublikada qida məhsullarının ekspertizası üzrə beynəlxalq akkreditasiyadan keçmiş və İSO 17025-2005 tələblərinə cavab verən laboratoriya fəaliyyət göstərir ki, ixrac əməliyyatlarında tələb olunan bir sıra sertifikatlar məhz buradan təmin olunur. Naxçıvanda fəaliyyət göstərən şirkətlərə xarici bazarlara çıxışın təmin edilməsində ixrac təşviqlərinin verilməsi, onlara xarici bazarlara çıxış üçün müxtəlif dəstək mexanizmlərinin tətbiqi dairəsi genişlənir. Belə ki, artıq muxtar respublikada "İnvestisiya təşviqi sənədi"nin tətbiqinə başlanmışdır. Bununla yanaşı, Naxçıvanda istehsal olunmuş məhsulların xarici bazarlarda reklamı, onların dünyada qəbul olunmuş standartlar səviyyəsində dizaynı və başqa bu kimi məsələlər öz aktuallığını qoruyur. Qeyd edək ki, muxtar respublikamızda bu sahədə beynəlxalq keyfiyyət idarəetmə sistemləri (İSO) tətbiq olunur. Burada ixracatçılara logistik xidmətlərin göstərilməsi və daha sərfəli nəqliyyat yollarının müəyyən olunması, xarici ölkələrdə bazar araşdırılmalarının aparılması və vahid şəmsiyyə altında məhsulların satışının təşkili istiqamətində müvafiq tədbirlər həyata keçirilir.

Hazırda Naxçıvan Muxtar Respublikasında istehsal edilən çox sayda məhsul ixrac baxımından perspektivli hesab olunur. Məhsul ixracı marketinq və reklam işinin təşkili ilə birbaşa əlaqəlidir. Bu baxımdan sərgilərdə iştirak, reklam kampaniyalarının təşkili, təbliğat işləri xüsusi əhəmiyyət kəsb edir. Son illərdə muxtar respublikadan 1385 nəfərdən çox nümayəndə 62 xarici ölkə sahibkarları ilə keçirilmiş 256-dan çox yerli və beynəlxalq əhəmiyyətli sərgi, biznes-forum və konfranslarda iştirak etmişdir. Təkcə 2016-cı ilin ötən dövründə 140 nəfər 16 beynəlxalq əhəmiyyətli tədbirə qatılmışdır. Muxtar respublikada istehsal olunan bir sıra məhsullar Birləşmiş Ərəb Əmirliklərində və İran İslam Respublikasında keçirilmiş sərgilərdə nümayiş olunmuşdur. 2017-ci ildən etibarən bu kimi tədbirlərdə dövlət maliyyə dəstəyi ilə həyata keçiriləcək ticarət missiyaları çərçivəsində ixracatçı sahibkarların daha məqsədyönlü iştirakı nəzərdə tutulur.

Naxçıvanın əsas ixrac məhsullarından məşhur mineral sularımızı, təbii duzu, vafli məmulatlarını, emal olunmuş ət və meyvə məhsullarını, qazlı aromatlaşdırılmış içkiləri, spirtli içkiləri, meyvə şirələrini, yüksəkkeyfiyyətli tikinti məhsullarını, o cümlədən Naxçıvan sementini, gips, gips lövhələr, məsaməli beton məmulatları və mərmər, travertin daş məmulatlarını, xam dəri, metal məmulatlarını, mebel və digər çox sayda məhsulları misal göstərmək olar. 2016-cı ildə muxtar respublikada istehsal olunan sement, gips, gips lövhələr, məsaməli beton, mebel dəstləri, döşək dəstləri, vafli məmulatları, dekorativ metal məmulatları Gürcüstana, yarımfabrikat dəri, mebel dəstləri, mərmər, travertin, mineral sular Türkiyəyə, məsaməli beton məmulatları İrana, mineral sular və tərəvəz məhsulları Ukraynaya, Litvaya, Birləşmiş Ərəb Əmirliklərinə, Rusiyaya ixrac olunub. Ümumilikdə, 2016-cı ilin 9 ayı ərzində muxtar respublikadan məhsul ixracının həcmi 302 milyon ABŞ dollarını ötüb.

Son illər muxtar respublikada ixrac potensiallı məhsulların inkişafına təkan verəcək yeni müəssisələrin yaradılması rəqabətədayanıqlı məhsulların sayını daha da artırıb. Cari il oktyabrın 31-də "Naxçıvan Məhsulları" Məhdud Məsuliyyətli Cəmiyyəti üçün inşa olunmuş istehsal sahələri və anbarın istifadəyə verilməsi münasibətilə keçirilən tədbirdə bu məsələnin əhəmiyyətinə diqqətçəkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri muxtar respublikada istehsal olunan məhsulların Naxçıvan brendi ilə xarici bazarlara çıxarılması və tanıdılması tapşırığını verib. Qeyd edək ki, brend yüksək potensialı olan digər bir sahə də turizmdir. Belə ki, Naxçıvanın "Badamlı" və "Sirab"ı kimi "Batabat" və "Əshabi-Kəhf"i də artıq brend kimi tanınmaqdadır. Muxtar respublika beynəlxalq turizmin inkişaf etdirilməsi ilə adi mal və məhsul ixracından daha sərfəli olan turizm məhsulunun ixracı imkanı yaranır ki, bu da hazırkı dövrdə ölkəmizdə qeyri-neft sektorunun əsas prioritetləri arasındadır.

*Şübhəsiz, hər ixrac məhsulu hələ brend deyildir. Ancaq unutmayaq ki, bu gün dünyada güclü brend kimi tanınan məhsulların istehsalçıları da bir vaxtlar xarici bazarlara çıxmaq üçün öz kövrək addımlarını atıblar, yardım və lobbiçilik dəstəyi alıb, beynəlxalq sərgi və yarmarkalarda iştirak edib, tanınıblar. Ancaq əldə olunan təcrübə və müşahidələr onu göstərir ki, insan üçün faydalı olan istənilən məhsulu xarici bazarlarda brend kimi tanıtmaq mümkündür. Bunun üçün isə uzunmüddətli iş və qətiyyət qədər milli məhsullarımıza öz marağımız da lazımdır.*

**Əli CABBAROV**

# Gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisi səviyyəsi müzakirə olunub



***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Naxçıvan şəhərindəki Heydər Əliyev Uşaq Gənclər Yaradıcılıq Mərkəzində orta ümumtəhsil məktəbləri hərbi rəhbərlərinin fəaliyyətinin gücləndirilməsinə həsr olunmuş konfrans keçirib.***

Konfransda təhsil naziri Məmməd Qəribov məruzə ilə çıxış edib. Bildirilib ki, muxtar respublikada tikilən və ya əsaslı şəkildə yenidən qurulan ümumtəhsil məktəbləri ən yeni informasiya texnologiyaları ilə yanaşı, müasir tələblərə cavab verən hərbi kabinələrlə də təchiz olunurlar. Həmin kabinələr şagirdlərin hərbi biliklərinin artırılmasına xidmət edən əyani vəsaitlərlə təmin edilirlər.

Hərbi rəhbərlərin biliklərinin artırılması, Əlahiddə Ümumqoşun Ordusunda olan silah və texnikalarla, eyni zamanda hərbi xidmətkeçmə haqqında əsasnamə ilə onların tanış edilməsi məqsədilə 23-26 mart 2016-cı il tarixdə Naxçıvan şəhərindəki "N" hərbi hissədə hərbi rəhbərlərin təlim toplantısı keçirilib. Bununla yanaşı, 23 aprel 2016-cı il tarixdə muxtar respublika ümumtəhsil məktəblərində işləyən 201 hərbi rəhbərə mövsümi geyim forması verilib.

Muxtar respublikamızda bu sahədə yaradılmış şərait və həyata keçirilən tədbirlər ümumtəhsil məktəblərində fəaliyyət göstərən hərbi rəhbərlərin işlərinə daha məsuliyyətlə yanaşmaları üçün stimul yaradıb. Elə bunun nəticəsidir ki, bu sahə üzrə təhsil almaq məqsədilə ali hərbi məktəblərə və Heydər Əliyev adına Hərbi Liseyə sənəd verən məzunlarımızın sayı ilbəil artmaqdadır. Belə ki, 2016-cı ildə məzunlarımızdan 191 nəfəri xüsusi təyinatlı ali təhsil müəssisələrinə sənəd verib. Onlardan 63 nəfəri müxtəlif ali hərbi məktəblərə qəbul olunublar.

Bildirilib ki, muxtar respublikada aparılan uğurlu ordu quruculuğu gənclərin hərbi təhsil sahəsinə marağını xeyli artırıb. Bunun nəticəsidir ki, bu il Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün 952 şagird sənəd verib. Lakin onların yalnız 622 nəfəri hərbi tibbi komissiyadan keçərək imtahanlarda iştirak etmək hüququ qazanıb. Həmin şagirdlərdən 558-i imtahanlarda iştirak edib, onlardan 152 nəfəri keçid balını toplaya bilib.

Qeyd olunub ki, xüsusi təyinatlı ali hərbi məktəblərə və Heydər Əliyev adına Hərbi Liseyə qəbul prosesində qazanılmış uğurlarla yanaşı, nöqsanlar da mövcuddur. Belə ki, hələ də bəzi məktəblərimiz bu mühüm məsələnin yüksək səviyyədə həllində lazımi qədər fəal deyillər. Belə ki, Heydər Əliyev adına Hərbi Liseyə qəbul üçün sənəd vermə prosesində muxtar respublika üzrə, ümumilikdə, 28 ümumtəhsil məktəbi iştirak etməyib.

"2016-2017-ci tədris ilində bu məsələ çox ciddi nəzarətə götürüləcək, daha yaxşı nəticə əldə olunması üçün yaradılmış imkandan maksimum istifadə olunacaqdır", – deyən Məmməd Qəribov diqqətə çatdırıb ki, ümumtəhsil məktəblərimizin ali hərbi məktəblərə və hərbi liseyə qəbul prosesində aşağı nəticə göstərməsinin və yaxud qəbul verməməsinin səbəbləri Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin kollegiyasında müzakirə olunub və bir çox qərarlar qəbul edilib.

Sadalanan nöqsanlardan aydın olur ki, məktəb rəhbərləri öz işlərində dönüş yaratmalıdırlar. Şəhər və rayonlarımızda işin öhdəsindən lazımi səviyyədə gəlməyən, vəzifə məsuliyyətini dərindən dərk etməyən, məktəbi doğma evi, ocağı bilməyən məktəb direktorları və hərbi rəhbərlər bu haqda dərindən düşünməli və ciddi nəticə çıxarmalıdırlar.

Sonra Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi, general-mayor Səxavət Salmanovun, Əlahiddə Ümumqoşun Ordu komandanının şəxsi heyət üzrə müavini, general-mayor Vasif Kazımovun, Heydər Əliyev adına Hərbi Liseyin rəisi, general-mayor Elman Orucovun, Şərur Rayon Təhsil Şöbəsinin metodisti Nəriman İsmayılovun, Culfa rayon Əbrəqunus kənd tam orta məktəbinin hərbi rəhbəri Əfqan Teymurovun çıxışları olub.

Çıxışlarda muxtar respublikanın tam orta məktəblərində gənclərin çağırışaqədərki hazırlığı fənninin tədrisi səviyyəsinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər, bu fənnin tədrisində müşahidə olunan nöqsanlar, həmin nöqsanların aradan qaldırılması yolları barədə danışılıb. Qeyd olunub ki, gənclərin çağırışaqədərki hazırlığı fənni həm gənclərin fiziki və hərbi-vətənpərvərlik tərbiyəsində, həm də ordu sıralarına hazırlanmasında mühüm əhəmiyyət daşıyır. Fənn müəllimləri öz işlərini tələb olunan səviyyədə qurmalı, konfransda deyilən nöqsanların tezliklə aradan qaldırılmasına nail olmalıdırlar.

# Andiçmə mərasimi keçirilib



***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayında gənc əsgərlərin andiçmə mərasimi keçirilib.***

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, üçrəngli bayrağımız meydana gətirilib. Sonra gənc əsgərlər Vətəni layiqincə qoruyacaqlarına, əsgəri borclarını şərəflə yerinə yetirəcəklərinə and içiblər.

Mərasimdə Mülki Müdafiə Alayının komandiri, polkovnik İspəndiyar Əhmədov hərbi andın əhəmiyyətindən danışıb, gənc əsgərləri əlamətdar gün münasibətilə təbrik edib.

Mülki Müdafiə Alayının zabitləri kapitan Kənan İmanov, baş leytenant Aslan Əliyev çıxış edərək gənc əsgərlərə gələcək xidmətlərində uğurlar arzulayıblar.

Valideynlər adından çıxış edən Kifayət Cəlilova bu günün onda böyük qürur hissi doğurduğunu deyib, bütün valideynlərin vətənin müdafiəçiləri olan övladları ilə fəxr etdiyini bildirib.

Gənc əsgərlər adından çıxış edən Cəlil Cəlilov və Elman Bayramlı nümunəvi xidmətləri ilə hərbi hissənin adını daim yüksək tutacaqlarını, baş verə biləcək fövqəladə hallar zamanı əllərindən gələni əsirgəməyəcəklərini bildiriblər.

Naxçıvan Muxtar Respublikası fövqəladə hallar nazirinin müavini, daxili xidmət polkovnik-leytenantı Nurlan Həsənov ordumuzun qüdrətindən, ölkəmizdə həyata keçirilən ordu quruculuğundan danışıb, Mülki Müdafiə Alayının baş verə biləcək fövqəladə halların nəticələrinin aradan qaldırılmasına hər an hazır olduğunu bildirib.

Sonda alayın şəxsi heyəti hərbi marşın müşayiəti ilə tribuna önündən keçib.

**Xəbərlər şöbəsi**

## Beynəlxalq elmi simpoziumun iştirakçıları Naxçıvanın tarixi abidələri, mədəniyyət və səhiyyə müəssisələri ilə tanış olublar

***Naxçıvan şəhərində noyabrın 17-18-də keçirilən "Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlı beynəlxalq elmi simpoziumun paytaxt Bakı şəhərindən və Türkiyə Respublikasından gələn iştirakçıları noyabrın 19-da Ordubad rayonunun gəzməli-görməli yerləri, tarixi abidələri ilə tanış olublar.***



Qonaqlar əvvəlcə Ordubad rayonunun Kotam kəndinə gəliblər. Türkiyə və Azərbaycan tarixçiləri Araz çayının sahilində yerləşən Kotam kəndinin adını qədim türk toponimlərinə görə, dağlar arasında qərar tutan yaşayış bölgəsi kimi izah ediblər. Kotam kəndi barədə məlumat verilərək bildirilib ki, bu yaşayış məntəqəsi Naxçıvanda ilk kənd mərkəzinin yaradıldığı yaşayış məntəqələrindən biridir. Kotam 2 yerə ayrılır: qədim Kotam, yeni Kotam. "Qədim Kotam" adlanan ərazi (buna köhnə Kotam da deyirlər) Araz çayından xeyli aralıda yerləşib. 1956-cı ildən sakinlər aşağı enməyə, nisbətən geniş torpaqlarda ev-eşik salmağa başlayıblar.

Azərbaycan və Türkiyə tarixçilərindən ibarət heyət Ordubad şəhəri ilə tanış olub. Bildirilib ki, dəniz səviyyəsindən 850 metr yüksəklikdə yerləşən bu şəhərin bol sulu çeşmələri, barlı-bərəkətli meyvə bağları, mehriban insanları həmişə bura gələn səyyahların diqqətini cəlb edib.

Qeyd olunub ki, arxeoloji qazıntılar zamanı əldə olunmuş abidələr Ordubadın tarixinin 7 min il əvvələ söykəndiyini göstərir. Müxtəlif dövrlərdə burada aparılmış tədqiqatlar şəhərin zəngin mədəniyyətə malik olduğundan xəbər verir. Bu yurd yeri məşhur ipəyinə və burada yetişdirilən meyvələrinə görə də tanınıb. Qədimlik və müasirliyin simasını qonaqlara eyni gözgüdə göstərməyi bacaran Ordubad təkcə ölkəmizin deyil, ümumilikdə, qədim Şərqin və Türk dünyasının əsrarəngiz şəhərlərindən biridir.

Şəhərin mərkəzində yerləşən "Cümə" məscidi qədim memarlıq abidəsi kimi qonaqları heyrətə salıb. Onun 1275-ci ildə tikildiyi qeyd olunub. Lakin 1903-cü ildə məscid təmir edilərkən tapılmış bir kərpicin üzərində "III tarixi-hicri Ər-Rəşid" sözləri onun yaşını 500 il də artırır.

Ordubad şəhərində başı göylərə çatan çinarlar da beynəlxalq elmi simpoziumun paytaxt Bakı şəhərindən və Türkiyə Respublikasından gələn iştirakçılarının diqqətini cəlb edib. Qeyd olunub ki, çinarlar bu qədim şəhərin tarixinə əsrlərdir, şahidlik edir. XX əsrin əvvəllərində buranı ziyarət etmiş Nefodov adlı səyyah yazıb: "Ordubad öz daş-qaşı ilə parıldayan qənirsiz gözələ bənzəyir. Ordubad çinarları təbiət tamaşası, el yaraşığıdır. Bu yurdun çinarları da torpağı kimi qədimdir".

Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin yerləşdiyi qədim "Qeysəriyyə" binası ilə tanışlıq zamanı XII əsrə aid olan bu tarixi abidə haqqında ətraflı məlumat verilib. Keçmişdə şahlara məxsus daş-qaş satılması məqsədilə tikilmiş bu binada indi tarixi eksponatlar sərgilənir. Bina 1990-cı ilin may ayından Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir. Bildirilib ki, böyük günbəzdən və ona bitişik 16 kiçik günbəzdən ibarət olan bu bina gözəl memarlıq üslubunda tikilib. Abidə bişmiş kərpicdən inşa olunub, hündürlüyü 8,5 metrdir. Binanın 200 kvadratmetr sahədə şəbəkə sistemi, daxili divarları bərpa olunub. Muzeydə 4 minədək eksponat saxlanılır.

Ordubadla tanış olan alimlər qeyd ediblər ki, bütün bu parametrlərinə görə Ordubad yaxın gələcəkdə milli və beynəlxalq festivalların, tarixi və mədəni simpoziumların keçiriləcəyi məkan kimi tanışlıq turizminin əsas mərkəzlərindən birinə çevriləcəkdir.

Qonaqlar Əshabi-Kəhf ziyarətgahı və Duzdağ Fizioterapiya Mərkəzi ilə də tanış olublar.

✍ **Rauf ƏLİYEV**

***Xəbər verdiyimiz kimi, noyabrın 17-18-də Naxçıvan Dövlət Universitetində "Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlı beynəlxalq elmi simpozium keçirilib. Azərbaycan Milli Elmlər Akademiyasının Tarix İnstitutu, Naxçıvan Dövlət Universiteti, Türkiyə Respublikası Nazirlər Kabinetinin Atatürk Kültür, Dil və Tarix Yüksək Qurumu, Atatürk Araşdırma Mərkəzi və İqdır Universitetinin birgə təşkilatçılığı ilə keçirilən simpozium iştirakçılar tərəfindən yüksək qiymətləndirilib. Atatürk Araşdırma Mərkəzinin rəhbəri Mehmet Ali Beyhan və Samsun 19 May Universitetinin müəllimi İbrahim Tellioğlu keçirilən tədbirin əhəmiyyəti və Naxçıvanla bağlı təəssüratlarını "Şərq qapısı" qəzetinin oxucuları ilə bölüşüblər.***

## Beynəlxalq simpoziumun iştirakçıları Naxçıvandan xoş təəssüratlarla ayrılıblar



***Atatürk Araşdırma Mərkəzinin rəhbəri Mehmet Ali BEYHAN:*** – Bildiyiniz kimi, keçirilən beynəlxalq elmi simpoziumun adı "Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlanır. Naxçıvan Mərkəzi Araz adlandırdığımız coğrafi bölgənin mərkəzində yerləşir. Naxçıvan Böyük İpək Yolunun həm Anadoluya, həm də Asiyaya keçid nöqtəsidir. Bu baxımdan Naxçıvan əhəmiyyətli tarixi bir bölgədir və belə bir beynəlxalq tədbirin burada keçirilməsi daha məqsədəuyğundur. Simpoziuma gəldikdə onu deyə bilərəm ki, tədbir çox gözəl keçdi, burada Azərbaycan Milli Elmlər Akademiyasından və onun Naxçıvan Bölməsindən, Azərbaycanın və Türkiyənin bir çox universitetlərindən elm adamları iştirak edirdilər. Məruzələr zamanı bölgənin tarixi, coğrafiyası, etnoqrafiyası, ədəbiyyatı ilə bağlı maraqlı fikirlər bildirildi, müzakirələr aparıldı. Elmi simpoziumun nəticələri ilə bağlı dəyərləndirmələr də hər birimiz üçün maraqlı oldu. Naxçıvanla bağlı təəssüratlarıma gəldikdə isə deyə bilərəm ki, hər bir şəhərin başlanğıc tarixi vardır. Naxçıvanın tarixi isə insanlıq tarixi qədər qədimdir. Çünki Naxçıvandan bəhs edilən mənbələrin heç birində Naxçıvanın yaradılış tarixi ilə bağlı konkret bir məlumat yoxdur. Bu isə o anlama gəlir ki, insanlar Yer üzündə var olduqlarından bəri Naxçıvanda məskunlaşma olub. Naxçıvanın coğrafi mövqeyi də buna uyğundur, çünki bəşəriyyətin tarixi Mesopotamiyada, Araz hövzəsində başlayıb. Bu baxımdan Naxçıvan və ətrafındakı tarixi məkanlar bizə bu bölgənin tarixi haqqında zəngin məlumatlar verir. Bu gününə gəldikdə isə Naxçıvan müasir, təmiz havası, yaşıllığı və təmizliyi gözoxşayan bir şəhərdir. Dünyanın bir çox şəhərlərində olmuşam, ancaq inanın ki, ən çox sevdiyim şəhərlərdən biri Naxçıvan oldu. Eyni zamanda naxçıvanlılar gülərüz, mehriban, ünsiyyətcil, qonaqpərvərdirlər. Burada özümü vətənimdəki kimi, evimdəki kimi hiss edirəm. Çünki dilimiz, adətlərimiz, mətbəxlərimiz çox oxşardır, demək olar ki, eynidir. Bu baxımdan elmi simpoziumun Naxçıvanda keçirilməsinə çox sevindim.



***Samsun 19 May Universitetinin müəllimi İbrahim TELLİOĞLU:*** – "Mərkəzi Araz hövzəsi tarix və mədəniyyət fonunda" adlı simpoziumun Naxçıvanda keçirilməsi mühüm əhəmiyyət daşıyır. Çünki Anadolunun giriş qapısı sayılan Naxçıvan bu ərazinin türk tarixinin öyrənilməsi baxımından böyük rol oynayır. Beynəlxalq elmi simpoziumda da bu haqda məruzələr dinlənildi, müzakirələr aparıldı. Bu tədbir bizə Naxçıvan, ümumilikdə isə Mərkəzi Araz hövzəsi haqqında tarixi, arxeoloji, mədəni həqiqətlərin birgə müzakirəsi baxımından hərtərəfli şərait yaratdı. Azərbaycanlı alimlərlə belə bir mötəbər tədbirdə fikir mübadilələri aparmaq bu bölgəni tədqiq edən tarixçi-alim kimi məni çox sevindirdi. Naxçıvan bəşəriyyətin ilkin yaşayış məskənlərindəndir. Bu isə o deməkdir ki, Naxçıvan əsrlərdən bəri süzülüb gələn mədəniyyətin, sivilizasiyanın beşiyidir. Bu tarix indi də Naxçıvanın köksündə yaşayır. Mən ilk dəfədir, bura gəlirəm, Samsunda danışdığım dili burada da danışıram, orada görüb alışdığım mədəniyyəti burada da görürəm. Bu, Ərzurumdan, Qarsdan, Malatyadan, Türkiyənin digər bölgələrindən gələn insanlar üçün də belədir. Bu, onu göstərir ki, aramızdakı sərhədlər, sadəcə, rəsmi xarakter daşıyır. Əslində, kökü bir, tarixi, mədəniyyəti eyni olan millət üçün sərhədlər heç bir məna kəsb etmir. Naxçıvan Türkiyənin Türk dünyasına açılan qapısıdır. Buradakı bütün toponimlər, adlar türklüyün möhürüdür. Min illərdir, bu adlar Naxçıvanda yaşayır, bundan sonra da yaşayacaqdır. Naxçıvan şəhərini gəzdik, çox xoşumuza gəldi. Tarixlə müasirlik burada iç-içə nəfəs alır. Nə qədər böyük işlər görülsə də, yeni binalar tikilsə də, tarixə toxunulmayıb. Bir tərəfdə yaşı yüz illərlə ölçülən tarixi abidələr, bir tərəfdə isə müasir binalar – Naxçıvanın gözəlliyi də bundadır. Sosioloqlar buna sağlam inkişaf deyirlər. Digər tərəfdən şəhər çox təmiz saxlanılır, səs-küydən əsər-əlamət yoxdur. Sanki şəhər nizamlı olaraq gözəgörünməz bir əllə idarə olunur. Naxçıvanı belə görmək məni çox qürurlandırdı.

✍ **Səbuhi HƏSƏNOV**

## Araz sahilinə sözlü səyahət və yaxud Naxçıvanın Arazboyu abidələri



*Araz mənim dünənimin, bu günümün*
*şahidi.*
*Araz mənim sevincimi, dərdlərimi daşıyır.*
*Xan Arazın sahiliylə addımlasan görərsən*
*Bu sahildə min kitablıq cild-cild*
*tarix yaşayır.*

Əslində, Araz boyunca yerləşən Naxçıvan özü bir abidədir və yaxud Naxçıvan ərazisində yerləşən bütün abidələri Araz hövzəsi abidələr qrupuna aid edə bilərik. Lakin bu yazımızda Naxçıvanın birbaşa olaraq Araz sahilində yerləşən abidələrindən bəhs edəcəyik. O abidələrdən ki, tarixin müxtəlif dövrlərinə şahidlik ediblər və bəzən təkcə tarixi deyil, coşqun Xan Arazın sularının izlərini də özlərində yaşadıblar. Araz Naxçıvanın cənub sərhədləri boyunca Qərbdən Şərqə doğru axır. Elə biz də sözlü səyahətimizə məhz qərbdən şərqə doğru başlayacağıq.

Araz çayı bugünkü Naxçıvan torpaqlarına qeyrət qalası Sədərəkdən daxil olur. Burada Arazın sahilində yerləşən əsas abidə Sədərək qalasıdır. Bu abidə Araz çayına doğru uzanan Validağın cənub-qərb silsiləsi üzərindədir. Arxeoloqların fikrincə, bu qalanın tarixi eramızdan əvvəl II-I minilliklərdən başlayır. "Naxçıvan Abidələri Ensiklopediyası"nda göstərilir ki, 2001-ci ildə Naxçıvan arxeoloji ekspedisiyası tərəfindən aşkar edilmiş bu qala qədim dövrdə Şərqi Anadolu və Şərur ərazisində yaranmış güclü tayfa ittifaqları arasında münasibətlərin gərginləşməsi səbəbindən yadelli basqınlarının qarşısının alınması üçün tikilmişdir. Orta əsrlərdə isə Sədərək qalası İpək Yolu üzərində yerləşən əsas nəzarət-gözətçi qalalarından biri funksiyasını yerinə yetirmişdir.

Şərur rayonu ərazisi ilə Arazboyu irəlilədikcə neçə-neçə irili-xırdalı tarixi yaşayış məskənlərinin izlərini buralarda görmək mümkündür. Səfəvilər dövrünün şahidi olmuş Şərur düzünün özü bir tarixdir.

Tarixin izlərini yaşadan Arazboyu abidələrdən biri də Böyükdüz ərazisindədir.

*Dədə Qorqud nişanəsi – bir dastandır*
*Böyükdüz.*
*Bəkdüz Əmən buralardan Peyğəmbərə*
*varubdur.*
*Bəlkə elə o səbəbdən burdakı on məzarda*
*Orta əsr İslamının nişanəsi qalıbdır.*

Kəngərli rayonunun Böyükdüz kəndinin cənubunda yerləşən orta əsrlərə aid yaşayış yeri 1991-ci ildə qeydə alınmışdır. Araz çayında baş vermiş daşqınlar nəticəsində əksər hissəsi dağılmış yaşayış yerinin ərazisində tapılmış 10 məzarda tədqiqat aparan arxeoloqların qeydlərindən məlum olur ki, burada dəfn edilənlər müsəlman adəti üzrə və İslam qaydalarına uyğun dəfn olunmuşlar. Heç də təsadüfi deyildir ki, "Kitabi-Dədə Qorqud"da Bəkdüz Əmən "baruban Peyğəmbərin üzünü görən və Oğuzda onun əshabəsi olan" bir şəxs kimi təqdim edilmişdir.

*Astabadın üzərini örtmüş olan sis, duman,*
*Nəiminin Əlincədə Haqq söyləyən səsidir.*
*Bir zamanlar mövcud olmuş*
*Abbasabad qalası –*
*Gedən qanlı savaşların acı nişanəsidir.*

Naxçıvanda Araz çayı boyunca yerləşmiş abidələr sırasında Azərbaycanın görkəmli mütəfəkkiri Nəiminin vətəni olan Astabad şəhərinin qalıqları və sonralar bu ərazidə tikilmiş Abbasabad qalası xüsusilə qeyd edilməlidir. Naxçıvan şəhərindən 12 kilometr cənub şərqdə yerləşmiş Astabad şəhəri orta əsrlərdə Hürufiliyin əsas mərkəzlərindən biri olmuşdur. Bu şəhər XII-XIV əsrlərdə bölgənin ən böyük şəhərlərindən biri olmuş və alman səyyahı İohan Şiltberger öz "Səyahət kitabı"nda bu şəhərdən xüsusi olaraq bəhs etmişdir.

1809-1810-cu illərdə fransız hərbi mütəxəssislərinin layihəsi əsasında Qacar şahzadəsi Abbas Mirzənin sifarişi əsasında tikilmiş Abbasabad qalası Avropa memarlığı üslubunda inşa edilmişdir. İkinci Rusiya-İran müharibəsi zamanı bu qala uğrunda qanlı döyüşlər getmiş və Abbasabad qalasının ruslar tərəfindən ələ keçirilməsindən sonra Naxçıvan xanlığının işğalı başa çatdırılmışdır.

*Seyr etdikcə gözlərimdə bir anlığa*
*canlanır.*
*Bu torpağa Şərqdən, Qərbdən karvanların*
*gəlməsi.*
*Ziya ül-Mülk körpüsündən ağır-ağır*
*adlayıb.*
*Culfa karvansarayında nəfəsini dərməsi.*

Bəli, təqribən, sözlü səyahətimizin tam ortasında Ziya ül-Mülk körpüsünə yetişirik. Bu körpü Culfa yaxınlığında, Araz çayının dağların ətəklərinə toxunaraq burulğan halda döndüyü yerdə yonulmuş daşdan inşa edilmiş möhtəşəm memarlıq incisi olmuşdur. Xalq arasında bəzən "İsgəndər körpüsü" deyilən bu körpünün indi yalnız beş dayağı qalmışdır. Körpünün yanında isə bir karvansarayın qalıqları var. Bu Cənubi Qafqaz regionunda elmə məlum olan ən böyük karvansaraydır. Uzunluğu 37 metr olmuş Culfa karvansarayı XII-XIII əsrlərə aid edilir. Abidə orta əsrlərdə Culfa şəhərinin daşıdığı mühüm ticarət əhəmiyyətindən xəbər verməkdədir.

*Xan Arazın sahilindən məğrur-məğrur*
*boylanır.*
*İnkişafdan payın almış Gülüstanın türbəsi.*
*Gələcəkdə barəsində yazacaqdır şairlər:*
*"Gülüstana dönən yurdun qədimlik nişanəsi".*

Bəli, Araz boyunca düzülən abidələrin içində Naxçıvanın iki intibahından pay almış bir abidə var – Gülüstan türbəsi. AMEA-nın müxbir üzvü Fəxrəddin Səfərlinin də yazdığı kimi orta əsr mənbələrində bəzən "Kəsik günbəz" kimi xatırlanan, memarlıq-konstruktiv quruluşuna görə Naxçıvanın, bütövlükdə Azərbaycanın türbətipli digər memarlıq abidələrindən fərqlənən Gülüstan türbəsi orta əsr Azərbaycan memarlıq abidələri içərisində özünəməxsus yer tutur. Sovet hakimiyyəti illərində türbə Araz çayı boyunca çəkilən sərhəd xəttinin arxasında qaldığı üçün baxımsız qalmış, bərpa edilməmiş, əhalinin onun yanına getməsinə icazə verilməmişdir. Lakin Naxçıvanın müasir inkişafı Gülüstan türbəsinə gələcək yüzilliklər üçün ikinci həyat vermişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun 7 oktyabr 2015-ci ildə "Gülüstan türbəsinin bərpası və tədqiq olunması haqqında" Sərəncamına əsasən, dünya əhəmiyyətli Gülüstan türbəsi elmi və tarixi əsaslarla bərpa olunmuşdur.

Naxçıvanın Arazboyu abidələri təkcə bununla bitmir, Şərqə doğru irəlilədikcə Yaycıda biz XX əsrin əvvəllərində ermənilər tərəfindən xalqımıza qarşı törədilmiş qanlı soyqırımların nişanəsi olan Yaycı soyqırımı abidəsini görürük.

Naxçıvanın ən möhtəşəm orta əsr şəhərlərindən biri saya biləcəyimiz Kiran şəhəri də Araz hövzəsi şəhərlərə aiddir. Azadkənd ətrafındakı abidələr də məhz Naxçıvanın Arazboyu abidələr qrupuna daxil olmaqla tariximizin ən qədim səhifələrini özündə yaşatmaqdadırlar.

Bunlarla bitirmi Naxçıvanın Arazboyu abidələri? Xeyr, bitmir. Biz bu siyahını o zaman tamamlaya biləcəyik ki, tarixən Naxçıvana mənsub olmuş Qafan, Mehri ellərini sözlə deyil, gözlə görmək imkanımız olacaq. Təkcə gözlə görmək deyil, həm də o torpaqlara əlimizlə toxunmaq imkanımız olacaq. Gözümüzün gördüyü və səsimizin yetdiyi torpaqlara izimizin düşməsi arzusu ilə...

✍ **Elnur KƏLBİZADƏ**

***Naxçıvan Muxtar Respublikasında həyata keçirilən kompleks quruculuq tədbirlərinin mühüm istiqamətlərindən biri də regionda ekoloji problemlərin həllinin, ətraf mühitin qorunmasının, təbiətin zənginləşdirilməsinin diqqət mərkəzində saxlanılmasıdır. Son illərdə diyarımızda yaşıllıq sahələrinin həcminin dəfələrlə artması, yurdumuzun yaşıllıqlar məskəninə çevrilməsi məhz belə tədbirlərin nəticəsidir. Bu sahədə görülən işlərin kəmiyyət və keyfiyyətinin yüksəldilməsi, mövcud problemlərin həlli istiqamətində görülən tədbirlər davamlı xarakter alıb, yeni əkilən ağacların suvarılmasında damcı üsulunun tətbiqi genişləndirilib, xeyli meyvə bağları, yaşıllıq zolaqları salınıb.***

## Ötən həftə keçirilən iməciliklərdə də yeni yaşıllıqlar salınıb



Cari ildə də bu tədbirlər mütəşəkkilliklə davam etdirilir, meyvə bağlarına, yaşıllıq zolaqlarına, gülkarlıq sahələrinə aqrotexniki qulluq göstərilir.

Ötən həftə keçirilən iməciliklər də yüksək səviyyədə təşkil olunub.

Naxçıvan şəhərinin sakinləri Naxçıvan-Batabat magistral yolunun Nəzərabad kəndi hissəsindəki terrasda və Əliabad qəsəbəsində Şorsu adlanan ərazidə yaşıllıqlara aqrotexniki qulluq göstərib, şəhərdəki yaşıllıqlarda bərpa məqsədilə 140 ədəd meyvə ağacı əkiblər.

Muxtar respublikanın ən böyük bölgələrindən biri olan Şərur rayonunda Xanlıqlar-Qıvraq yolunun kənarlarında 3 min ədəd meyvə və 100 ədəd meşə, Kərimbəyli və Vərməziyar kəndlərinin müəyyən ərazilərində, ümumilikdə, 260 ədəd meyvə ağacı, Yuxarı Daşarx, Gümüşlü, Həmzəli və Dizə kəndlərində 2750 ədəd meyvə ağacı, Stansiya Daşarx kəndində 470 gül kolu, 60 ədəd həmişəyaşıl ağac əkilib.

Babək rayonunun ərazisində də qələbəlik müşahidə edilib. Rayon sakinləri muxtar respublikanın ekologiyasına öz töhfələrini verməyə çalışaraq Naxçıvan-Şahbuz-Batabat magistral yolunun Nəzərabad kəndi hissəsində 300 ədəd meyvə ağacı, Çeşməbasar-Güznüt kəndləri arasındakı yaşıllıqlarda 1500 ədəd meşə ağacı əkiblər.

Bağlar diyarı Ordubad rayonunda da iməciliklər mütəşəkkilliklə keçirilib, Naxçıvan-Ordubad magistral yolunun Düylün kəndinə gedən hissəsində 1 hektarlıq ərazidə 500 ədəd üzüm kolu, 3 hektarlıq bağda 2770 ədəd meyvə ağacı, 5 hektarlıq ərazidə 15 min ədəd gül kolu, bərpa məqsədilə 600 ədəd və kəndlərdə, ümumilikdə, 650 ədəd meyvə ağacı əkilib.

Culfa rayonunda keçirilən iməciliklərdə Geoloji Ekspedisiya İdarəsinin həyətində 30 ədəd həmişəyaşıl ağac, 450 ədəd gül kolu və 450 ədəd meyvə ağacı, Culfa şəhərinin girişində 120, yaşayış binalarının ətrafında 30 ədəd həmişəyaşıl ağac, həmçinin binaların ətrafında 250 ədəd gül kolu, şəhərdə yol kənarlarında 250 ədəd meyvə ağacı və bərpa məqsədilə, ümumilikdə, 400 ədəd meşə ağacı əkilib.

Kəngərli rayonunda Naxçıvan-Sədərək magistral yolunun Qabıllı kəndi hissəsində 25 ədəd həmişəyaşıl ağac, Böyükdüz kəndi hissəsində 250 ədəd, Qıvraq-Püsyan avtomobil yolunun kənarlarında bərpa məqsədilə 1600 ədəd meyvə ağacı, Xok kəndinin girişində 48 ədəd həmişəyaşıl ağac əkilib.

Şahbuz şəhərində yeni salınmış 0,6 hektarlıq bağda 530 ədəd meyvə, Kolanı-Biçənək kəndləri arasındakı yol kənarlarında 410 ədəd meşə ağacı və bərpa məqsədilə, ümumilikdə, 140 ədəd meyvə ağacından istifadə edilib.

Sədərəklilər Naxçıvan-Sədərək magistral yolunun kənarlarında 700 ədəd meşə, Sədərək kəndində 500 ədəd meyvə ağacı və rayondakı park və xiyabanlarda 1500 ədəd gül kolu əkiblər.

Muxtar respublikamızın bütün bölgələrində ahıl vətəndaşların həyətlərində təmizlik, abadlıq işləri aparılıb.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası üzrə 19 noyabr 2016-cı il tarixə taxıl səpininin gedişinə dair operativ məlumat

hektarla

| S/№ | Şəhər və rayonlar | Səpilən sahə | o cümlədən | |
|---|---|---|---|---|
| | | | buğda | arpa |
| 1. | Şərur rayonu | 4441,0 | 4301,0 | 140,0 |
| 2. | Babək rayonu | 6855,0 | 4805,0 | 2050,0 |
| 3. | Ordubad rayonu | 1142,0 | 632,0 | 510,0 |
| 4. | Culfa rayonu | 3955,0 | 3398,0 | 557,0 |
| 5. | Kəngərli rayonu | 3214,0 | 1784,0 | 1430,0 |
| 6. | Şahbuz rayonu | 856,0 | 856,0 | - |
| 7. | Sədərək rayonu | 1332,0 | 1087,0 | 245,0 |
| 8. | Naxçıvan şəhəri | 705,0 | 602,0 | 103,0 |
| **Naxçıvan Muxtar Respublikası üzrə cəmi:** | | **22500,0** | **17465,0** | **5035,0** |

## Ekstremal idman oyunları üzrə muxtar respublika birinciliyinə yekun vurulub

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman, Fövqəladə Hallar nazirlikləri, Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil etdiyi, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25-ci ildönümünə həsr olunmuş hüquq-mühafizə orqanlarının idmançıları arasında ekstremal idman oyunları üzrə muxtar respublika birinciliyinə yekun vurulub.***



Yarışın açılış mərasimində çıxış edən təşkilatçı orqanların nümayəndələri birinciliyin mahiyyəti barədə idmançıları məlumatlandırıblar. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Mülki Müdafiə Alayının təlim bazasında keçirilən birinciliyin reqlamentinə əsasən yarış 3 yaş (18-22, 23-27, 28-32) qrupu üzrə təşkil edilib. İdmançılar ekstremal idman yarışında maneələr zolağının dəf edilməsi, yüksəkliyə qalxma, quyudan zərərçəkmişin çıxarılması, əl və ayaqların köməyi ilə üfüqi kəndirdən keçmə, komandalar arasında kəndir dartma və fiqurlu nərdivanda çalışma növlərində qüvvələrini sınayıblar.

Birinciliyin yekun nəticəsinə əsasən, Daxili Qoşunların komandası bu prosesləri hamıdan öncə tamamlayaraq qalib adını qazanıb. Digər iki pillədə isə Əlahiddə Ümumqoşun Ordusunun və Fövqəladə Hallar Nazirliyinin komandaları qərarlaşıblar.

Sonda qalib komandalara təşkilatçılar tərəfindən diplom, kubok və hədiyyələr təqdim olunub.

## Boks birinciliyi bu gün başa çatacaq



***Azərbaycan Respublikasının dövlət müstəqilliyinin 25-ci ildönümünə həsr olunmuş boks üzrə yeniyetmə, gənclər və kişilər arasında Naxçıvan Muxtar Respublika birinciliyinə start verilib.***

Noyabr ayının 19-da başlayan birincilikdə 100-ə yaxın dəri əlcək sahibi mübarizə aparır. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Boks Federasiyasının birgə təşkil etdiyi yarış Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilir.

Birincilikdə 2000 və 2003-cü illər təvəllüdlü yeniyetmələr və 1999-cu il təvəllüddən yuxarı gənclər və kişilər 12 çəki dərəcəsində rinqə çıxırlar. Onlar 35, 40, 45, 50, 53, 57, 60, 64, 69, 75, 81 və 91 kiloqram çəki dərəcələrində ən güclünü müəyyənləşdirməyə çalışacaqlar. Beynəlxalq Boks Federasiyasının mövcud qaydalarına uyğun olaraq təşkil edilən birincilik olimpiya sistemi üzrə keçirilir. Yarışı keçirməkdə məqsəd muxtar respublikada bu idman növünü təbliğ etmək, boksçuların dərəcələrini və döyüş təcrübələrini artırmaq, eyni zamanda istedadlı dəri əlcək sahiblərini üzə çıxarmaqdan ibarətdir.

Bu gün birinciliyin final görüşləri keçiriləcək. Yarışın qalibləri Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Boks Federasiyası tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılacaqlar.

## Naxçıvanda Azərbaycan və Kolumbiya voleybol komandaları arasında yoldaşlıq görüşü keçirilib

***Kolumbiya ilə Azərbaycan arasında bədən tərbiyəsi və idman sahəsində mübadilə çərçivəsində voleybol üzrə yeniyetmələrdən ibarət Kolumbiya millisi Naxçıvan Muxtar Respublikasına gəlib.***



Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi və Voleybol Federasiyasının təşkilatçılığı ilə qədim diyarda 4 gün qonaq olan kolumbiyalı yeniyetmə voleybolçular öncə Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini ziyarət ediblər. Daha sonra proqrama uyğun olaraq onlar Duzdağ Fizioterapiya Mərkəzində, "Əlincəqala" Tarix-Mədəniyyət Muzey Kompleksində, Nuh Peyğəmbərin məzarüstü abidəsində, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq, Möminə Xatın və Açıq Səma Altında Muzey Kompleksində olublar.

Naxçıvan Muxtar Respublikasına gələn Kolumbiya və Azərbaycanın qızlardan ibarət yeniyetmə voleybol komandaları arasında yoldaşlıq görüşü də keçirilib. Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində keçirilən görüş Azərbaycan millisinin 2:0 hesablı qələbəsi ilə başa çatıb.

**Ceyhun MƏMMƏDOV**

## Muxtar respublikanın şahmat məktəbləri arasında növbəti interaktiv məşğələ



İntellektual idman növü kimi şahmatın inkişafına muxtar respublikamızda ciddi diqqət yetirilir. Bu məqsədlə şəhər və rayonlarda şahmat məktəbləri tikilərək istifadəyə verilib, həmin məktəblərin maddi-texniki bazası gücləndirilib. Bundan əlavə, müasir informasiya-kommunikasiya texnologiyaları ilə təmin olunmuş şahmat məktəblərində distant və interaktiv təhsilin təşkili üçün hər cür şərait yaradılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20 iyun 2014-cü il tarixli "Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında" Sərəncamından irəli gələn vəzifələrin həlli istiqamətində həyata keçirilən tədbirlərin davamı kimi ötən tədris ilindən başlayaraq ayda bir dəfə innovativ şahmat məşğələləri keçirilir.

Naxçıvan Şahmat Mərkəzində təşkil olunmuş növbəti məşğələni beynəlxalq hakim Emin Hacıyev tədris edib. Şəhər və rayon şahmat məktəblərindən 160-a yaxın şahmatçı elektron lövhədən interaktiv dərsi izləyib. Məşğələ zamanı şahmatçıları maraqlandıran suallar müəllim tərəfindən cavablandırılıb.

Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən təşkil edilən və qabaqcıl şahmat müəllimləri tərəfindən tədris olunan innovativ məşğələlərin keçirilməsində məqsəd şahmatın kütləviliyini təmin etmək, şagirdlərin bu sahəyə meyil və maraqlarını daha da artırmaq, qarşılıqlı fikir mübadiləsi aparmaqla şahmatçılar arasında rəqabət mühitini formalaşdırmaqdır.

**Xəbərlər şöbəsi**

### İtmişdir

Cəfərquliyev Salam Qafar oğlunun adına olan AD-0012746 seriya nömrəli hərbi vəsiqə itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.

Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Rauf Əliyev

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1050. Sifariş № 882